# Elmin İnkişafı Fondu ilə Yaponiyanın tanınmış “Tokyo Boeki Technology Ltd” şirkəti arasında Qarşılıqlı Anlaşma Haqqında Memorandum imzalanmışdır



Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu və Yaponiyanın “Tokio Boeki Teknoloji Ltd” şirkəti arasında

QARŞILIQLI ANLAŞMA HAQQINDA

MEMORANDUM

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu,** sonralar “**Fond**” adlandırılacaq, İcraçı direktor cənab *Elçin Babayev*in simasında və Yaponiyanın “**Tokyo Boeki Teknolodji Ltd**” şirkəti, sonralar “**Tokyo Boeki**” adlandırılacaq, Prezident cənab *Kazuei Uçida*nın simasında təmsil olunacaq, sonralar birlikdə “Tərəflər” və ayrı-ayrılıqda isə “Tərəf” adlandırılacaq, Azərbaycan Respublikası ilə Yaponiya arasında əməkdaşlığın inkişafına töhfə vermək məqsədi ilə və bu əməkdaşlığın iki ölkə arasında mövcud dostluq əlaqələrinin möhkəmləndiriləcəyini qəbul etməklə aşağıdakılardan ibarət qarşılıqlı anlaşmaya müvəffəq oldular:

**Maddə 1**

Tərəflər bərabərlik və qarşılıqlı mənfəət prinsipləri əsasında, həmçinin bu Memorandumun şərtlərinə və Azərbaycan Respublikası və Yaponiyanın fəaliyyətdə olan qanunvericiliyinə uyğun olaraq əməkdaşlığı həvəsləndirəcəklər.

TOMAS TOKYO BOEKI GROUP

MEMORANDUM

OF UNDERSTANDING

between

Science Development Foundationunder the President of theRepublic of Azerbaijan

and

Company

“Tokyo Boeki Technology Ltd”, Japan

**Science Development Foundation under the President of the Republic of Azerbaijan,** hereinafter referred to as “**Foundation**”, represented by Executive director Mr.*Elchin Babayev*, and the Company“**Tokyo Boeki Technology Ltd**”, Japan, hereafter referred to as «**Tokyo Boeki**», represented by the President Mr.*Kazuei Uchida*, hereinafter jointly referred to as the “Parties” and each separately – “the Party”,intending to contribute to the developmentof collaborationbetween the Republic of Azerbaijan and Japan,and considering that this collaboration will contribute to strengthening of existingfriendly relations between two countries,reached the understaning on the following:

**Clause 1**

Parties will encourage collaboration based on the principles of equality and mutual benefit, and in accordance with the provisions of this Memorandumand the current legislations of the Republic of Azerbaijan and Japan.

Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun icraçı direksiyasında Fond ilə 22 şirkəti özündə birləşdirən “Tokyo Boeki Group” beynəlxalq Holdinqin üzvü olan və elmi-analitik cihaz, avadanlıq və qurğuları istehsal və təchiz edən Yaponiyanın tanınmış “Tokyo Boeki Technology Ltd” şirkəti arasında Qarşılıqlı Anlaşma Haqqında Memorandum imzalanmışdır. Memorandumu Respublika günü – 28 May bayramı münasibətilə keçirilən tədbirdə Fondun icraçı direktoru Elçin Babayev və “Tokyo Boeki Technology Ltd” şirkətinin prezidenti Kazuei Uçida imzalamışlar.

Tədbirdə Yaponiyanın Azərbaycandakı səfirliyinin müşaviri, Missiya Rəhbərinin müavini xanım Hideko Ono və Yaponiya səfirliyinin İkinci katibi, İqtisadi məsələlər və iqtisadi əməkdaşlıq şöbəsinin rəhbəri Takao İmanişi də iştirak etmişlər. Tədbirdə çıxış edən xanım Hideko Ono iki ölkə əməkdaşlığının bütün sferalarda inkişaf etdiyini vurğulamışdır.

Memorandum Azərbaycan Respublikası ilə Yaponiya arasında elm və texnologiyaların transferi sahəsində əməkdaşlığın inkişafına töhfə vermək məqsədi daşıyır və bu əməkdaşlığın iki ölkə arasında mövcud dostluq əlaqələrini möhkəmləndirəcəyini nəzərdə tutur.

Memoranduma əsasən tərəflər bərabərlik və qarşılıqlı mənfəət prinsipləri əsasında, Azərbaycan Respublikası və Yaponiyanın fəaliyyətdə olan qanunvericiliyinə uyğun olaraq əməkdaşlığı həvəsləndirəcəklər. Memorandumu həyata keçirmək məqsədi ilə “Tokio Boeki Technology Ltd”şirkəti Fondun qrant layihələri üçün mürəkkəb elmi-analitik cihazların seçimi, tətbiqi və istifadəsi üzrə məsləhət işlərini həyata keçirmək, bu layihələrin zəruri elmi-analitik cihazları vasitəsilə təchizat səviyyəsini qaldırmaq istiqamətində tədbirlərin görülməsi, xüsusi halda, müvafiq Yaponiya istehsalçılarından tələb olunan elmi-analitik cihazların Fondun qrant layihələrinə çatdırılmasını təmin etmək məqsədilə Fond ilə müqavilələrin bağlanması, Fondun maliyyə dəstəyi verdiyi tədqiqat qrantları üçün nəzərdə tutulmuş elmi-analitik cihazlar Fond tərəfindən alındıqda, uyğun formallıqların hazırlanmasına köməklik göstərmək, Fondun qrant layihələrinin elmi-analitik cihazlarla təchizatının təmin edilməsi üçün Yaponiya maliyyə vasitəçi təşkilatlarının vəsaitlərinin cəlb edilməsinə köməklik göstərmək, elmi iclasların, konfransların, simpoziumların, görüşlərin, elm festivallarının və sərgilərin təşkili ilə əlaqədar tərəflər arasında müştərək layihələr təklif etmək və onların reallaşdırılmasında iştirak etmək, Azərbaycan Respublikasının elm sahəsində uğurlarının Yaponiyanın dövlət təşkilatları və özəl müəssisələri arasında təşviqini aparmaq kimi öhdəlikləri öz üzərinə götürür.








Razılığa əsasən, tərəflər birgə layihələr yerinə yetirə və qrant müsabiqələri (çağırışları) təşkil edə bilərlər.
"Tokyo Boeki Group" 1947-ci ildə "Tokyo Boeki Shokai" adı altında yaradılıb, öz yüksək keyfiyyətli sənaye (energetika, maşınqayırma, metal istehsalı) və mürəkkəb elmi-analitik cihazlar istehsalı və satışı ilə tanınır. Əsasən Yaponiya istehsalı olan mal(lar)la alim və tədqiqatçıları təchiz edən "Tokyo Boeki Technology Ltd" şirkəti JEOL, Nikon, Rigaku, Ulvac, Katsuragawa Electric, Yamato Scientific kimi tanınmış markalarla işləyir.





Artıq bu şirkətin iki bahalı və ultra-modern elektron mikroskopu Elmin İnkişafı Fondu tərəfindən qrant layihələri çərçivəsində alınaraq AMEA Geologiya İnstitutunda (skanedici elektron mikroskop) və Azərbaycan Tibb Universitetində (transmissiya (nüfuzedici) elektron mikroskopu) quraşdırılmış və tədqiqatçıların istifadəsinə verilmişdir. Həmçinin işçi heyət qrant hesabına təlimlər də keçmişdir.
Daha iki cihazın alınması haqqında Fond ilə şirkət arasında müvafiq müqavilələr imzalanmışdır və onların yaxın zamanda AMEA Fizika İnstitutuna (transmissiya (nüfuzedici) elektron mikroskopu) və Geologiya İnstitutuna (karbon ilə tozlandıran cihaz və aksesuarlar dəsti) gətiriləcəyi gözlənilir.
Elmin İnkişafı Fondu və "Tokyo Boeki Techology Ltd" şirkəti Azərbaycanda Elm Festivalının təşkil edilərək keçirilməsi, həmçinin elmi-analitik cihazların nümayiş sərgisinin təşkili barədə də ilkin razılığa gəlmişlər.

*Elmin İnkişafı Fondunun icraçı direksiyası*
*Bakı ş.*
*27 may 2013*